**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**İQTİSADİYYAT İNSTİTUTU**

*Əlyazması hüququnda*

**ALLAHYAROV RAUF MIRZAĞA OĞLU**

# ƏMƏK BAZARININ FORMALAŞMASI ŞƏRAİTİNDƏ ƏHALİNİN MƏŞĞULLUĞUNUN TƏNZİMLƏNMƏSİ İSTİQAMƏTLƏRİ

**İxtisas: 53.08.01** - "Ümumi iqtisadiyyat"

İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2018**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutunda yerinə yetirilmişdir.

**Elmi rəhbər**: Əməkdar elm xadimi, AMEA-nın müxbir üzvü, iqtisad elmləri doktoru, professor
**Şahbaz Musa oğlu Muradov**

**Rəsmi opponentlər:** iqtisad elmləri doktoru
**Sevda Məmməd qızı Mikayılova**

iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Əli Hüseynağa oğlu Səlimov**

**Aparıcı təşkilat:** **AR Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Əmək və Sosial Problemlər üzrə Elmi-Tədqiqat və Tədris Mərkəzi**

Müdafiə 16 noyabr 2018-ci il saat $16^{00}$- da AMEA İqtisadiyyat İnstitutunda fəaliyyət göstərən D.01.181 Disesrtasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ.1143, Bakı şəhəri, H.Cavid prospekti 115, AMEA İqtisadiyyat İnstitutu

Dissertasiya işi ilə AMEA-nın Mərkəzi Kitabxanasında tanış olmaq olar.
Avtoreferat 15 oktyabr 2018-ci ildə göndərilmişdir.

D.01.181 Dissertasiya Şurasının elmi katibi,
iqtisad üzrə fəlsəfə doktoru **S.T.Şıxəliyeva**

# GİRİŞ

**Mövzunun aktuallığı.** Azərbaycan Respublikası keçən əsrin 90-cı illərinin əvvəlində SSRİ-nin süqutu nəticəsində yenidən öz müstəqilliyinə qovuşduqdan, bazar münasibətlərinə keçməyə başladıqdan sonra, burada, bütün başqa sahələrdə olduğu kimi, əmək bazarında da vəziyyət xeyli kəskinləşmiş və bu sahədə bir sıra həlli mürəkkəb və çətin olan problemlər meydana çıxmışdır. Belə ki, ölkənin siyasi arenasında baş verən radikal dəyişikliklər onun iqtisadi sferasına da öz təsirini göstərmişdir. İqtisadi böhranın dərinləşməsi cəmiyyətdə sosial-siyasi ziddiyyətlərin kəskinləşməsi ilə müşayiət olunmuşdur. Sosialist iqtisadiyyatının bazar iqtisadiyyatı sisteminə transformasiyası uzun müddət mövcud olmuş təsərrüfat əlaqələrinin kəsilməsi ilə nəticələnmişdir ki, bu da ölkənin əksər müəssisələrinin öz fəaliyyətini dayandırması, qiymətlərin ifrat dərəcədə artımı və inflyasiya meyllərinin dərinləşməsi fonunda məşğulluq səviyyəsinin aşağı düşməsi və işsizliyin artmasına gətirib çıxartmışdır. Ancaq bu proses uzun sürməmiş və əsası Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş iqtisadi islahatlar kursunun reallaşdırılması nəticəsində 1995-ci ildən başlayaraq böhran dayandırılaraq makroiqtisadi sabitliyə nail olunmuş, iqtisadi inkişafda artım meylləri təmin edilmişdir.

Ümumiyyətlə götürüldükdə, Azərbaycan dövləti öz müstəqilliyinə qovuşduqdan sonra, başqa məsələlərlə yanaşı qarşısına qoyduğu və xüsusi diqqət yetirdiyi ən mühüm vəzifələrdən biri məşğulluq siyasətini bazar iqtisadiyyatının tələblərinə uyğunlaşdırmaqdan ibarət olmuşdur. Ulu öndər Heydər Əliyevin inkişaf strategiyasına əsaslanan prezident İlham Əliyev cənablarının təşəbbüsü və rəhbərliyi ilə 2003-cü ildən sonra da ölkəmizdə həyata keçirilmiş uğurlu islahatlar nəticəsində Azərbaycan Respublikası bazar iqtisadiyyatı sisteminə keçidin bütün çətinliklərini, MDB ölkələri arasında ilk olaraq keçid dövrünü başa vurmuş, böyük iqtisadi potensiala malik olan və iqtisadi inkişaf sürətinə görə dünyanın lider dövlətinə çevrilmişdir. Son 14 il ərzində (2003-2017-ci illər) ölkə iqtisadiyyatına 231 milyard dollar, o cümlədən 2017-ci ildə 14,6 milyard dollar sərmayə qoyulmuşdur. Son 14 il ərzində valyuta ehtiyatlarımız 23,3 dəfə artaraq 1,8 milyard dollardan 42,0 milyard dollara çatmış; təkcə 2017-ci ildə ölkəmizdə 177 min daimi iş yeri açılmışdır. Ölkə prezidenti İlham Əliyev cənabları bu məsələyə diqqət yetirərək "29" yanvar 2018-ci il tarixdə "Regionların 2014-2018-ci illərdə sosial iqtisadi inkişafı Dövlət Proqramının icrasının dördüncü ilinin yekunlarına həsr olunan konfransda"-kı giriş nitqində demişdir ki: "Biz 14 il ərzində ölkəmizdə 1,9 milyon iş

yeri yaratmışıq ki, onların da 1,4 milyonu daimi iş yerləridir. Ancaq əhali 1,5 milyon nəfər artıb. Bəli, bu vətəndaşlar hələ ki, yeniyetmə və uşaqlardır, ancaq bir neçə ildən sonra onlar işlə təmin olunmalıdırlar. Ona görə də iş yerlərinin yaradılması Azərbaycanda daimi proses olmalıdır. İndi dünyada texnoloji inkişafın çox sürətlə getdiyini və bunun iş yerlərinin ixtisarına gətirib çıxaracağını nəzərə alsaq, biz bu sahəyə çox böyük diqqət verməliyik ki, Azərbaycanda işsizlik daimi aşağı səviyyədə olsun".

Ölkə prezidenti tərəfindən irəli sürülmüş bu fikir, bir daha onu göstərir ki, tədqiq etdiyimiz problem, bu gün olduğu kimi, yaxın və uzaq gələcəkdə də öz aktuallığını saxlayacaqdır. Adı çəkilən konfransda dövlət başçımız İlham Əliyev cənabları qeyd etmişdir ki: "Əsas məqsədimiz Azərbaycanın inkişafını daha da sürətləndirməkdir, dayanıqlı, uzunmüddətli inkişafa nail olmaqdır". Bu baxımdan, Azərbaycanda əmək bazarının dövlət tərəfindən tənzimlənməsi və bu sahədə iqtisadi islahatların dərinləşdirilməsi və səmərəli məşğulluq siyasətinin həyata keçirilməsi xüsusi əhəmiyyət kəsb edir. Məlumdur ki, müasir dövrə xas olan iqtisadi inkişaf və onun surəti əməyə, xüsusilə də yüksək ixtisaslı və peşə təhsilli iş qüvvəsinə olan tələbinin həcminə və quruluşuna təsirsiz ötüşə bilməz. Bu isə istər-istəməz işə götürənlər və işçilər arasında daha çevik münasibətlərin qurulmasını, iş qüvvəsinin kəmiyyət-keyfiyyət göstəricilərinin əmək bazarının dəyişən tələblərinə uyğunlaşdırılmasını, işçilərin sosial müdafiəsi və adaptasiya üsullarının daha da təkmilləşdirilməsini tələb edir.

Dünya iqtisadiyyatında baş verən sonuncu böhran göstərdi ki, hətta, uzun müddət ərzində bir ölkə çərçivəsində səmərəli məşğulluğun tənzimlənməsi mexanizmi iqtisadiyyatda gedən qloballaşma və inteqrasiya proseslərinin təsiri altında müvəffəqiyyətsizliyə uğraya bilər. Buna görə də məşğulluq probleminin kəskinləşməsi ilə üzləşən bir çox ölkələr bu sahədə yeni çıxış yolları axtarmağa məcburdurlar. Hazırda bizim ölkəmizdə də məşğulluğun tənzimlənməsinə istiqamətlənmiş xüsusi dövlət proqramları işlənib hazırlanmış və həyata keçirilməkdədir. Onu da qeyd etmək lazımdır ki, müstəqillik dövrünün ilk illərində ölkəmizdə formalaşmış əmək bazarının bəzi ağrılı cəhətləri - struktur disproporsiyaları, əhalinin sosial müdafiəsinin səviyyəsinin və real sektorda daimi iş yerlərinin yaradılmasının artım surətinin nisbətən aşağı olması, qeyri-formal sektorun genişlənməsi, miqrasiya axınlarına nəzarətin zəifləməsi sahəsində mövcud olmuş bəzi çatışmazlıqlar hələ də müşayiət edilməkdədir. Dünya iqtisadi birliyinə inteqrasiyanın güclənməsi, müxtəlif beynəlxalq iqtisadi birliklərə qoşulmağımız, heç şübhə yoxdur ki, Azərbaycanın əmək bazarının «dəyişkənliyinə» də öz təsirini göstərəcəkdir. Bu isə obyektiv surətdə

məşğulluq sahəsində səmərəli dövlət tənzimlənməsi siyasətinin həyata keçirilməsinin aktual məsələ olaraq qaldığını göstərir. Hazırda qloballaşan dünyada iqtisadi qeyri-stabilliyin artması şəraitində işçilərin sosial müdafiəsini və əmək bazarında tələb və təklifin tarazlığını təmin edən daha çevik dövlət tənzimlənməsi mexanizminin formalaşmasını tələb edir. Bu baxımdan, müasir dövrdə Azərbaycan Respublikasında məşğulluq sahəsində baş verən dəyişiklik və meyllərin təhlili və qiymətləndirilməsi, ölkənin əmək bazarında həyata keçirilən dövlət siyasəti və əhalinin sosial müdafiəsi ilə bağlı məsələlərin tədqiqi xüsusi aktuallıq kəsb edir və obyektiv zərurətdən irəli gəlir.

**Problemin öyrənilmə səviyyəsi.** İnsan inkişafı və əmək ehtiyatlarının formalaşması və istifadəsi, məşğulluq və işsizliyin nəzəri-metodoloji və konseptual əsaslarının tədqiqi, əhalinin səmərəli məşğulluğunun təmin edilməsi və dövlətin məşğulluq strategiyası, taktikası və siyasətinin işlənib hazırlanması ilə bağlı problemlər istər keçmiş SSRİ dövründə və istərsə də müstəqillik illərində keçmiş İttifaqın, o cümlədən də Azərbaycanın iqtisadçı alimlərinin daim diqqət mərkəzində olmuş və indi də onların diqqət mərkəzindədir. Əhalinin səmərəli məşğulluğunun təmin edilməsi, işsizliyin azaldılması və dövlətin bu sahədəki siyasətinin formalaşdırılması ilə bağlı məsələlər bazar münasibətlərinin formalaşması və inkişafı şəraitində xüsusilə mühüm əhəmiyyət kəsb etməyə başlamışdır. Bu problemin nəzəri-metodoloji və konseptual əsasları, habelə müxtəlif konkret aspektləri Azərbaycan Respublikasında M.Allahverdiyevin, Ş.Muradovun, Z.Səmədzadənin, T.Quliyevin, A.Əhmədovun, T.Əliyevin, G.Əzizovanın, K.Şahbazovun, M.Məmmədovanın, S.Mehtiyevin, R.İsgəndərovun, Rəşad və Rövşən Muradovların, G.Quliyevin, A.Muradovun, S.Seyidovanın, T.Nəcəfovanın, R.Efendiyevin, F.Musayevanın və başqalarının, klassiklərdən – A.Smitin, D.Rikardonun, C.Millin, A.Piqunun, K.Marksın, A.Marşalın, C.Keynsin, K.Keynenin, İ.Seyin, M.Fredmenin, A.Fillipsin, A.Lafferin, A.Onkenin, possovet ölkələrinin alimlərindən – S.Strumilinin, M.Soninin, A.Kotlyarın, A.Kostikovun, Ə.Dadaşovun, İ.Maslovanın, L.Çijovanın, Q.Sergeyevanın, A.Kosayevin, R.Ubaydullayevanın və başqalarının əsərlərində geniş tədqiq edilmişdir.

Müstəqillik illərində respublikamızda qeyd edilən problemin bu və ya digər tərəflərinin öyrənilməsinə həsr edilmiş tədqiqatlar, başlıca olaraq, məşğulluğun və iş qüvvəsinə olan tələb və təklifin tarazlığının əmək bazarı ilə bağlı olan ümumi nəzəri-metodoloji və bəzi konkret cəhətlərinin və müxtəlif ərazilərdə əmək ehtiyatlarından istifadənin vəziyyətinin

araşdırılmasına həsr edilmişdir. Bu tədqiqatların bir qismi müstəqillik dövrünün ilk illərini, digərləri isə onun ilk onillik dövrünü əhatə etdiyindən, ölkə iqtisadiyyatının keyfiyyətcə yeni inkişaf mərhələsinə keçdiyi 2003-2017-ci illərdə ölkəmizdə bu sahədə baş vermiş dəyişikliklərin bütün tərəflərini özündə tam əks etdirməmişdir. Əslində əhalinin məşğulluğunun tənzimlənməsi mexanizminin iqtisadiyyatın inkişafının müxtəlif mərhələsində və dövrlərində dəyişkən olması, bu problemin daim diqqət mərkəzində saxlanmasını tələb edir. Məşğulluq probleminin bu özünəməxsus olan xarakterik cəhəti tədqiqat mövzusunun seçilməsini şərtləndirmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işinin əsas məqsədi məşğulluq sahəsində mövcud olan nəzəriyyə və baxışların və onlardan istifadə mexanizmlərinin konseptual əsaslarının öyrənilib ümumiləşdirilməsi, habelə müasir iqtisadi inkişaf mərhələsində Azərbaycan Respublikasında əhalinin məşğulluğu sahəsində baş verən əsas dəyişiklik və meyllərin təhlili və qiymətləndirilməsi, əmək bazarında həyata keçirilən dövlət siyasəti və əhalinin sosial-müdafiəsi ilə bağlı iqtisadi hadisə və proseslərin öyrənilməsi əsasında, ölkəmizdə əmək bazarının tənzimlənməsi mexanizminin təkmilləşdirilməsinə dair təklif və tövsiyələrin işlənib hazırlanmasından ibarətdir.

**Tədqiqat işində qarşıya qoyulan məqsədə nail olmaq üçün aşağıdakı konkret vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur:**

- Yeni iqtisadi münasibətlər şəraitində əmək bazarı, məşğulluq və işsizliyin sosial-iqtisadi mahiyyəti və məzmununun elmi-nəzəri əsaslarının öyrənilib ümumiləşdirilməsi;
- İş qüvvəsinin tələb və təklifinə təsir edən amillərin açıqlanması əsasında əmək bazarında mümkün olan tarazlıq modellərinin xüsusiyyətlərinin müəyyən edilməsi;
- Ölkə iqtisadiyyatında məşğulluğun dəyişilməsi meyllərinin aşkara çıxarılması;
- Respublikada məşğulluq və işsizlik səviyyəsinin müasir vəziyyətinin təhlili və qiymətləndirilməsi;
- Ölkə iqtisadiyyatında iş qüvvəsinin hərəkəti, iş yerlərinin dinamikasının təhlili və qiymətləndirilməsi;
- Ölkədə gedən miqrasiya proseslərinin əmək bazarına təsirinin aşkara çıxarılıb təhlil edilməsi;
- Əmək bazarında həyata keçirilən dövlət siyasəti kontekstində əhalinin sosial müdafiəsinin müasir durumunun təhlil edilməsi və bu sahədə mövcud olan uyğunsuzluq və çatışmazlıqların aşkara çıxarılması əsasında

gələcəkdə Azərbaycan Respublikasında əhalinin səmərəli məşğulluğunun təmin edilməsi və əhalinin sosial müdafiəsinin yaxşılaşdırılmasına dair elmi cəhətdən əsaslandırılmış təklif və tövsiyələrin işlənib hazırlanması.

**Tədqiqatın obyektini** Azərbaycan Respublikasının əhalisi və əmək ehtiyatları; **Predmetini** isə əmək bazarının formalaşması və inkişafı şəraitində əhalinin məşğulluğunun tənzimlənməsi ilə bağlı iqtisadi hadisə və proseslərin tədqiqi təşkil edir.

**Tədqiqatın nəzəri və metodoloji əsaslarını** klassiklərin, postsovet məkanına daxil olan ölkələrin görkəmli iqtisadçı alimlərinin əsərlərində öz əksini tapmış nəzəriyyə, müddəa və baxışlar, Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının Əmək Məcəlləsi; "Məşğulluq haqqında" Azərbaycan Respublikasının qanunu; Azərbaycan Respublikasının sosial-iqtisadi və demoqrafik inkişafına dair Dövlət Proqramları; "Azərbaycan Respublikasının məşğulluq strategiyası (2006-2015-ci illər)"; "Azərbaycan 2020: Gələcəyə baxış İnkişaf Konsepsiyası"; "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsi"; Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, Azərbaycan Respublikası Milli Məclisinin və Nazirlər Kabinetinin qərarları və normativ-hüquqi sənədləri təşkil edir.

**Tədqiqatın informasiya bazasını** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin; Əmək və Əhalinin Sosial Müdafiəsi və İqtisadi İnkişaf Nazirliyinin; Baş Məşğulluq İdarəsinin, Azərbaycan Respublikası Nazirlər Kabinetinin fəaliyyəti haqqında hesabatlarının; AMEA İqtisadiyyat İnstitutunun, Əmək və Sosial Problemlər üzrə Elmi-Tədqiqat və Tədris Mərkəzinin materialları; İnternet saytları və sair təşkil edir.

Tədqiqatın yerinə yetirilməsi prosesində işin yerinə yetirilməsində məntiqi, sistemli və müqayisəli təhlil, analitik, statistik və digər tədqiqat metodlarından istifadə edilmişdir.

**Tədqiqatın elmi yeniliyi** aşağıdakılardan ibarətdir:

- Yeni iqtisadi münasibətlər şəraitində məşğulluq və işsizlik anlayışlarının mahiyyət və məzmunu açıqlanmış;
- Məşğulluq və işsizlik arasındakı qarşılıqlı əlaqə və asılılıqlar müəyyənləşdirilmiş;
- Məşğulluğun formalaşması və tənzimlənməsi xüsusiyyətləri, əsas istiqamətləri, forma və metodları göstərilmiş;
- İş qüvvəsinin tələb və təklifinə təsir edən amillər və əmək bazarında mümkün olan tarazlıq modellərinin xüsusiyyətləri müəyyənləşdirilmiş;

- Ölkə iqtisadiyyatında əhalinin məşğulluğu sahəsində baş verən dəyişikliklər və yeni meyllər açıqlanmış; ölkə iqtisadiyyatında iş qüvvəsinin hərəkətində və iş yerlərinin dinamikası və quruluşunda baş vermiş dəyişikliklər və yeni meyllər aşkara çıxarılıb əmək bazarının tələbləri baxımından qiymətləndirilmiş;

- Kobb-Duqlas xətti tənlik düstur modelindən istifadə edərək, həmin düsturu tərs tənlik düsturuna çevirməklə, yəni istehsal funksiyası olan ÜDM-dən, istehsal və onun arqumentlərindən (əmək və əsas fond ehtiyatlarından) istifadə edərək əhalinin məşğulluğunu müəyyən riyazi funksiya şəkilinə salaraq arqument kimi digər makroiqtisadi göstəricilərin köməyi ilə ölkə iqtisadiyyatında məşğulluğun səviyyəsi qiymətləndirilmiş və səmərəli məşğulluğun təmin edilməsi imkanları müəyyən edilmiş;

- Ölkədə baş verən miqrasiya proseslərinin əmək bazarına təsiri açıqlanmış;

- Azərbaycan dövlətinin müəyyən etdiyi məşğulluq siyasəti və strategiyası kontekstində gələcəkdə ölkədə əhalinin məşğulluğunun tənzimlənməsi və sosial müdafiəsinin təmin edilməsi ilə bağlı elmi cəhətdən əsaslandırılmış təklif və tövsiyələr işlənib hazırlanmışdır.

**Tədqiqatın praktiki əhəmiyyəti.** Tədqiqat üzrə çıxarılan nəticələr və konkret təklif və tövsiyələr Azərbaycan Respublikasının İqtisadiyyat və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirlikləri tərəfindən məşğulluq üzrə Dövlət proqramlarının, Baş Məşğulluq Xidməti İdarəsində əmək ehtiyatları və əmək bazarı üzrə ərazi məşğulluq proqramlarının işlənib hazırlanmasında, eləcə də ali təhsil müəssisələrində tədris prosesində istifadə edilə bilər.

**Tədqiqatın nəticələrinin aprobasiyası və tətbiqi.** Dissertasiyanın əsas nəticələri və müddəaları müəllifin 2010-2017-cı illər ərzində çap etdirdiyi məqalələrində, beynəlxalq və regional konfrans və seminarlardakı çıxışlarında öz əksini tapmışdır. Dissertasiya işində əldə edilən konkret nəticə və təkliflər isə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə təqdim edilmiş və praktiki istifadə etmək üçün qəbul edilmişdir (Arayış № 11 EIJ 0 02-05/86. 17 oktyabr 2016-cı il).

**Məqalələrin nəşri.** Dissertasiya mövzusu üzrə 8,5 çap vərəqi həcmində 16 məqalə çap olunmuşdur ki, onlardan da üçü - xaricdə dərc olunmuşdur.

**İşin həcmi və strukturu.** Dissertasiya işi giriş, üç fəsil, doqquz paraqraf, nəticə və təkliflərdən ibarətdir. İstifadə edilmiş əsərlərin siyahısında 167 sayda ədəbiyyatın adı var. Tədqiqat işi AMEA İqtisadiyyat institutunun «Demoqrafiya və iş qüvvəsinin təkrar istehsalı problemləri» şöbəsində yerinə yetirilmişdir.

## DİSSERTASİYANIN QURULUŞU

**GİRİŞ**
**I FƏSİL. ƏMƏK BAZARININ FORMALAŞMASI VƏ MƏŞĞULLUĞUN TƏNZİMLƏNMƏSİNƏ ELMİ-NƏZƏRİ BAXIŞLAR**
1.1. Məşğulluq və onun tənzimlənməsinə elmi-nəzəri baxışlar
1.2. İş qüvvəsinin tələb və təklifinə təsir edən amillər və əmək bazarında tarazlıq modelləri
1.3. Məşğulluğun tənzimlənməsinin əsas istiqamətləri, formaları və metodları
**II FƏSİL. MÜSTƏQİLLİK İLLƏRİNDƏ AZƏRBAYCANDA ƏMƏK BAZARI VƏ MƏŞĞULLUĞUN TƏMİN EDİLMƏSİNDƏ BAŞ VERƏN DƏYİŞİKLİKLƏR VƏ ONLARIN QİYMƏTLƏN-DİRİLMƏSİ**
2.1. Azərbaycanda əmək bazarının formalaşmasının və məşğulluğun təmin edilməsinin spesifik xüsusiyyətləri
2.2. Məşğulluğun və işsizliyin müasir vəziyyətinin təhlili və qiymətləndirilməsi
2.3. Azərbaycanda iş qüvvəsinin və vakant iş yerlərinin hərəkətinin təhlili və qiymətləndirilməsi
**III FƏSİL. MƏŞĞULLUĞUN TƏNZİMLƏNMƏSİ VƏ ƏHALİNİN SOSİAL MÜDAFİƏSİ İSTİQAMƏTLƏRİ**
3.1. Azərbaycanda əmək miqrasiyasının əmək bazarına təsirinin tənzimlənməsi
3.2. Əmək bazarında dövlətin məşğulluq siyasəti və əhalinin sosial müdafiəsi problemləri
3.3. Əhalinin sosial müdafiəsi və əmək bazarının təkmilləşdirilməsi istiqamətləri
**NƏTİCƏ VƏ TƏKLİFLƏR**
**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI**

## MÜDAFİƏYƏ TƏQDİM EDİLƏN ƏSAS ELMİ MÜDDƏALAR

**1. Məşğulluq və onun tənzimlənməsinin elmi-nəzəri əsaslarının öyrənilməsi əsasında iş qüvvəsinin tələb və təklifinə təsir edən amillərin qiymətləndirilməsi və əmək bazarında mümkün olan tarazlıq modellərinin xüsusiyyətlərinin açıqlanması.**

Məşğulluq sahəsində mövcud olan nəzəriyyə və baxışların öyrənilib ümumiləşdirilməsi əsasında müəyyən edilmişdir ki, əmək bazarı dedikdə - konkret iqtisadi məkan çərçivəsində fəaliyyət göstərən işəgötürənlərlə

muzdlu işçilər arasında iqtisadi və hüquqi münasibətləri ifadə edən iş qüvvəsinə olan tələb və təklifin formalaşdığı yer başa düşülür. Əmək bazarında iş qüvvəsinin satışı prosesi həyata keçirilir və nəticədə, bazar iqtisadiyyatının struktur elementlərindən birini təşkil edən əmək bazarı iş qüvvəsinin təkrar istehsalının bütün fazalarında onun alıcıları ilə satıcıları arasında iqtisadi və hüquqi münasibətlər sistemi, rəqabət mühitində iş qüvvəsinə olan tələb və təklifin təsiri altında tarazlı əmək haqqının formalaşması mexanizmi kimi çıxış edir.

Əmək bazarı ümumilikdə götürüldükdə tələb və təklif qanunlarına və bazar mexanizmi prinsiplərinə əsaslanır və digər bazarlardan fərqlənir. Çünki, başqa bazarlardan fərqli olaraq, əmək bazarında əmtəə rolunda iş qüvvəsi çıxış edir. Onu da qeyd etmək lazımdır ki, iqtisadi ədəbiyyatlarda "əmək bazarı" və "iş qüvvəsi bazarı" anlayışlarının hansından daha çox istifadə olunması ilə bağlı fikir ayrılıqları da mövcuddur. Fikrimizcə, "Əmək bazarı" anlayışı bütövlükdə əmək münasibətlərinin reallaşdırılması ilə bağlı olduğundan, onun bu cür adlandırılmasını səhv hesab etmək olmaz. Ancaq eyni zamanda burada onu da unutmaq olmaz ki, alqı-satqı obyektini əmək deyil, "iş qüvvəsi" təşkil edir. Buna görə də hər iki anlayışdan istifadə edilməsində heç bir qəbahət yoxdur. İqtisadi ədəbiyyatlarda əmək bazarının növləri və ya modelləri kimi "normal uyğunlaşmış əmək bazarı", "təşkil olunmuş əmək bazarı", "rəqabətli əmək bazarı", "monopsonik əmək bazarı", "həmkarlar təşkilatlarının iştirak etdiyi əmək bazarı" və sair bu kimi anlayışlara da rast gəlinir. "Normal uyğunlaşmış əmək bazarı" tam məşğulluğun təmin olunması istiqamətində inkişaf etməklə, özündə ən yüksək dərəcədə tarazlığa nail olunmasını təcəssüm etdirir. "Təşkil olunmuş əmək bazarı" isə daha çox keçid iqtisadiyyatı üçün xarakterik hesab olunur. Bu bazarın əsas funksiyası isə iş qüvvəsinin istehsalı və səmərəli məşğulluğun təmin edilməsindən ibarətdir. "Rəqabətli əmək bazarı" isə götürənlərin və işlə təmin olunmaq istəyənlərin çoxsaylı olması; əmək haqqının səviyyəsinin diktə olunmaması; "Monopsonik əmək bazarı" bir alıcının və çoxsaylı satıcıların olması; "Həmkarlar təşkilatlarının iştirak etdiyi ikitərəfli inhisar modeli monopsonik bazara xas əmək bazarı modeli olmaqla sahə həmkarlar təşkilatlarının üstün rolu şəraitində fəaliyyət göstərən əmək bazarlarıdır. Onu da qeyd etmək lazımdır ki, əmək bazarı nəzəriyyəsinə əsasən - ilkin və ikinci əmək bazarı mövcuddur. İlkin əmək bazarı prestijli iş yerlərinin olduğu daxili (firmadaxili) bazardır. Bu bazara, iş yerlərində stabil məşğulluq, yüksək əmək haqqı, xidməti yüksəliş və peşəkarlıq səviyyəsinin artırılması; yüksək peşəkarlıq tələb edən mütərəqqi texnologiyalardan istifadə və s. xasdır.

İkinci əmək bazarı isə ilkin əmək bazardakından fərqli olaraq prestijli olmayan iş yerləri ilə xarakterizə olunur. Bu əmək bazarı qeyri-stabil məşğulluq və kadr axıcılığı, nisbətən aşağı səviyyəli əmək haqqı, primitiv texnologiya və əl əməyindən istifadə, xidməti yüksəlişin yox dərəcədə olması ilə səciyyələnir. Bu bazarlar həmkarlar təşkilatlarının çox və ya az dərəcədə dəstəyi, əmək müqavilələrinin uzun və ya qısamüddətli olması, sosial müdafiəlilik dərəcəsinin çox və ya az olması, istehsalın idarə olunmasında iştirak dərəcəsi və digər amillərə görə də fərqlənir. Həm də hər iki bazara xas olan cəhətlər bir-biri ilə sıx əlaqəli və qarşılıqlı asılılıq şəraitində fəaliyyət göstərirlər.

Dissertasiyada qeyd edilir ki, daxili və xarici əmək bazarları da bir-birindən fərqləndirilir. Daxili əmək bazarı bir müəssisə daxilində peşə və sosial mobilliyin təmin edilməsi ilə xarakterizə edilirsə, xarici əmək bazarı ölkə, region, sahə miqyasında işçilərin ilkin bölgüsü ilə səciyyələndirilir ki, bu da işçilərin kadr axıcılığı kimi ifadə olunan və onların müəssisələr arasında hərəkətini nəzərdə tutur.

Klassik siyasi iqtisada görə, əmək bazarı qiymət tarazlığı əsasında fəaliyyət göstərir. Başqa sözlə desək, əmək bazarında əsas tənzimləyici rolunu iş qüvvəsinin qiyməti oynayır. Neoklassiklər isə hesab edirlər ki, əmək bazarında iş qüvvəsinin qiyməti tələb və təklifdən asılı olaraq dəyişir və əgər bu bazarda tarazlıq olsaydı, bu, işsizliyi qeyri-mümkün edərdi. Reallıqda, qeyri-təkmil əmək bazarı əmək haqqının tələb və təklifin dəyişməsinə uyğun bir şəkildə artıb-azalmasına imkan vermir. Neoklassik modeldə əmək bazarında tarazlıq real əmək haqqı dərəcəsinin tələb və təklifin nisbətinə ani reaksiyası hesabına yaranır. Bu modelə görə, əmək bazarındakı tarazlıq nisbi dayanıqlığa malikdir. Neoklassik konsepsiyanın əksinə olaraq, Keyns əmək bazarına dövlətin müdaxiləsini nəinki mümkün, hətta, zəruri hesab etmişdir. Əmək bazarında tarazlığa iş qüvvəsinə olan tələb və təklif funksiyalarının bir-birinə uyğunluğu ilə deyil, səmərəli tələbə uyğun istehsal həcminə çatmaq üçün zəruri olan qədər iş qüvvəsini cəlb etməklə nail olmaq olar. Ümumiyyətlə, bu modeldə məşğulluğun tənzimlənməsinin dolayı metodlarına üstünlük verilir. M.Fridmenin əsas ideoloqu olduğu monetarizmin nümayəndələri isə əmək bazarına dövlət müdaxiləsini istisna etməməklə, onun mümkün qədər azaldılması fikrini irəli sürmüşlər. Monetaristlərin hesab etdiyi kimi, işsizlik təbii səviyyədən yüksək olmadığı müddət ərzində bu müdaxilə yersizdir. Monetaristlər iqtisadiyyatın tənzimlənməsində əsas alət kimi qəbul etdikləri pul-kredit siyasətindən əmək bazarında tarazlığın təmin edilməsi üçün də istifadə olunmasını məqsədəuyğun hesab edirlər. Bu siyasətin həyata keçirilməsi investisiya

qoyuluşunu və işgüzar aktivliyi stimullaşdırmaqla məşğulluq səviyyəsinin yüksəlməsinə də gətirib çıxarır. Dissertasiya işində aparılmış təhlildən əldə olunan nəticə ondan ibarətdir ki, yuxarıda adları çəkilən nəzəriyyələrin heç birindən tam və xalis şəkildə istifadə olunması mümkün deyildir. Hər bir ölkənin əmək bazarında formalaşmış özünəməxsus şəraitə uyğun olaraq həmin nəzəriyyələrin müəyyən elementlərindən, həm də təcrübədə sınaqdan keçirilərək özünü doğrultmuş müddəalarından istifadə etmək olar.

**2. İqtisadiyyatda məşğulluğun inkişaf meyllərinin öyrənilməsi əsasında məşğulluğun və işsizliyin vəziyyəti, iş qüvvəsinin və iş yerlərinin hərəkətində baş verən müasir meyllərin təhlili və əmək bazarının tələbləri baxımından sosial-iqtisadi cəhətdən qiymətləndirilməsi.**

Əmək bazarının ən mühüm məqsədlərindən biri – əhalinin səmərəli məşğulluğuna nail olmaqdan ibarətdir. İqtisadiyyatın dayanıqlı inkişafı əmək bazarının yerinə yetirdiyi funksiyaları qarşısında müəyyən tələblər qoyur. Bu tələblərə əmək bazarının subyektləri olan muzdlu işçilər və işə götürənlərin qarşılıqlı əlaqələrinin təşkili; rəqabətin iş qüvvəsinin səmərəli bölüşdürülməsi üçün kifayət edən səviyyədə saxlanılması; əmək haqqının bərabər çəkili dərəcələrinin müəyyən edilməsi; əhalinin məşğulluğunun təmin edilməsi; işsizlərin sosial müdafiəsinin həyata keçirilməsi, və s. aiddir.

Əhalinin məşğulluğunun tədqiqi və proqnozlaşdırılması zamanı ekonometrik model istehsal funksiyasının arqumenti kimi götürülür. Yəni, makroiqtisadi nöqteyi-nəzərdən, əhalinin məşğulluq səviyyəsi ÜDM, istehsal fondları, kapital qoyuluşları və əməklə qarşılıqlı təsirdə təhlil edilir və proqnozlaşdırılır. Əhalinin məşğulluğu ilə əlaqədar ekonometrik modellərdən biri kimi geniş yayılmış Kobb-Duqlas modelini nəzərdən keçirək:

$$\ddot{U}DM = C \times LN^{A} \times FN^{B} \qquad (1)$$

Burada, $C$ - istehsalın funksiya əmsalı; $LN$ - məşğul əhalinin sayı; $FN$ - əsas fondların dəyəri; $A$- əmək elastikliyi əmsalı; $B$ - fond elastikliyi əmsalıdır. Düsturun mahiyyəti, məşğulluğun digər makroiqtisadi göstəricilərlə, yəni ÜDM və əsas fondlarla qarşılıqlı asılılığının qiymətləndirilməsindən ibarətdir. 1-ci düsturda ÜDM tənlik funksiyasıdırsa, digər göstəricilər funksiyanın arqument göstəriciləri kimi götürülür. Burada məşğul əhalinin ümumi ölkə iqtisadiyyatına təsiri nöqteyi-nəzərdən baxsaq, düsturda ÜDM riyazi istehsal funksiyası kimi götürüldüyü halda, məşğulluq riyazi arqument kimi götürülmüşdür. Kobb-Duqlas xətti tənlik düsturundan istifadə edərək, bu düsturu tərs tənlik düsturuna çevirsək, onda əhalinin məşğulluğu riyazi funksiya şəklini alar,

digər makroiqtisadi göstəricilər isə bu funksiyanın arqumentləri kimi çıxış edə bilər. Bu halda, Kobb-Duqlas düsturu aşağıdakı vəziyyəti alar:

$$LN = ÜDM / (C \times A \times FN^{B}) \qquad (2).$$

Burada, *LN* - istehsal funksiyasına uyğun gələn məşğul əhalinin sayı; *C* - istehsal funksiyası əmsalı; *A* - əməyin elastiklik əmsalı; *FN* - əsas vəsaitlər (əsas fondlar); *B* - əsas fondların elastiklik əmsalıdır.

Bu ekonometrik və analitik düstur modelinin köməyi ilə ölkə iqtisadiyyatının istehsal funksiyasına əsasən, ölkəmizdə iqtisadiyyatda məşğul olan əhalinin dinamikasında baş vermiş dəyişikliyi qiymətləndirək. 1-ci cədvəldən göründüyü kimi, istehsal resurslarına uyğun olaraq, 2012-ci ildə ÜDM 1579,5 mln. manat az istehsal edilməklə və ölkə iqtisadiyyatında məşğul olanlar 126 min nəfər çox olmaqla, əmək məhsuldarlığı 5,6 faiz aşağı düşmüşdürsə ayrı-ayrı illərdə tərəddüd etməklə, 2016-cı ildə isə ÜDM 2553,0 min manat az istehsal edilib, məşğul əhalinin sayı 193,1 min nəfər çox olmaqla əmək məhsuldarlığı 7,9 faiz aşağı düşmüşdür. 1-ci qrafikdən göründüyü kimi, nəticədə, son 5 ildə (2012-2016-cı illərdə) istehsal resurslarından tam istifadə edilmədiyindən, həm əmək məhsuldarlığının səviyyəsi aşağı olmuş, həm də 9,7 mlrd. manat az ÜDM istehsal edilmişdir.

Əmək qabiliyyətli yaşda əmək qabiliyyətli əhalinin sayının təhlili isə göstərir ki, 2000-ci ildə əmək qabiliyyəti yaşda olmuş 4917,1 min əhalinin 4530,8 min nəfərini və ya 92,1 faizini, 2015-ci ildə isə müvafiq surətdə 7250,0 min nəfərin 6198,7 min nəfərini və ya 85,5 faizini əmək qabiliyyətli əhali təşkil etmişdir. Bu da o deməkdir ki, 2000-ci ildə əmək qabiliyyətli yaşda əhalinin cəmi 7,9 faizi əmək qabiliyyətinə malik olmamışdırsa, 2015-ci ildə bu göstərici 15,5 faizə qalxmış və ya təqribən 2,0 dəfə artmışdır ki, bu da iqtisadiyyatda məşğul olan əhalinin artım əmsalında öz təsirini

**Cədvəl 1**

**Azərbaycan Respublikasında istehsal funksiyasına əsasən iqtisadiyyatla məşğul olan əhalinin sayının dəyişilməsi dinamikası arasındakı asılılıq**

| | | ölçü vahidi | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|---|---|
| 1 | **Məhsul buraxılışı** | mln.m | 75756,6 | 81166,8 | 83311,4 | 78991.4 | 87545.5 |
| 2 | **Aralıq xərclər** | mln.m | 24404,9 | 26862,8 | 28790,3 | 29470,1 | 31743,0 |
| 3 | **ÜDM** | mln.m | 54380,0 | 54743,7 | 58182,0 | 59014,1 | 60393,0 |
| 4 | **Məşğul əhali** | min nəfər | 4445,3 | 4521,2 | 4602,9 | 4671,6 | 4759,9 |
| 5 | **Cəmi: əsas** | mln.m | 84262,4 | 95450,1 | 110677,9 | 124008,4 | 130458,1 |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | **fondlar** | | | | | | |
| **6** | **Əmək ödənişləri** | mln.m | 8961,2 | 10077,0 | 10560,5 | 10965,0 | 11206,6 |
| **7** | **Ümumi mənfəət** | mln.m | 42011,3 | 43848,1 | 43790,7 | 38168,7 | 38815,6 |
| **8** | **Əsas fondlar istehlakı** | mln.m | 2566,2 | 2617,8 | 3466,3 | 3643,3 | 3723,5 |
| **9** | **Xalis mənfəət** | mln.m | 39445,1 | 41230,3 | 40324,4 | 34525,4 | 35092,1 |
| **10** | **İstehsalın funksiya əmsalı** | əmsal | 0,3221 | 0,3309 | 0,3446 | 0,3731 | 0,3626 |
| **11** | **Fond elastiklik əmsalı** | əmsal | 0,6454 | 0,5735 | 0,5157 | 0,4759 | 0,4629 |
| **12** | **Əmək elastiklik əmsalı** | əmsal | 0,3546 | 0,4265 | 0,4843 | 0,5241 | 0,5371 |
| **13** | **İstehsal resurslarına əsasən tələb olunan ÜDM** | mln.m | 55959,5 | 56669,2 | 59306,6 | 61464,3 | 62946,0 |
| **14** | **İşçilərin sayı** | mln.m | 243,1 | 236,8 | 237,8 | 243,7 | 252,8 |
| **15** | **İstehsal funksiyasına (həcminə) görə tələb olunan işcilərin sayı** | min nəfər | 4319,3 | 4367,6 | 4515,6 | 4485,4 | 4566,8 |
| **16** | **ÜDM - faktiki ilə normativin fərqi** | mln.m | -1579,5 | -1925,5 | -1124,6 | -2450,2 | -2553,0 |
| **17** | **Məşğul əhali - faktiki ilə normativin fərqi** | min nəfər | + 126 | +153,6 | +87,3 | +186,2 | +193,1 |

**Qeyd.** Cədvəl müəllif tərəfindən tərtib edilmişdir.

**Qrafik 1**

**İstehsal funksiyasına görə tələb olunan işçilərin sayı və ÜDM** [1; 3]




**Qeyd:** Qrafik müəllif tərəfindən tərtib edilmişdir.

birbaşa büruzə vermişdir. Rəsmi statistik materiallara əsasən 2000-ci ilə nisbətən, 2015-ci ildə bütünlükdə ölkə əhalinin tərkibində əmək qabiliyyətli yaşda olan əmək qabiliyyətli əhalinin xüsusi çəkisi 7,2 faiz bənd artaraq 57,0 faizdən 64,2 faizə çatdığı halda, əmək qabiliyyətli iqtisadi fəal əhalinin xüsusi çəkisi isə 3,8 faiz bənd artaraq 47,1 faizdən 50,9 faizə yüksəlmişdir. Araşdırılan dövrün ilk illərinə nisbətən son illərdə əmək qabiliyyətli yaşda iqtisadi qeyri-fəal əhalinin əmək qabiliyyətli yaşda iqtisadi fəal əhalinin tərkibindəki xüsusi çəkisinin artaraq 25,0 faizdən 28,9 faizə qalxması və ya 3,9 faiz bənd artması əmək bazarında baş verən mənfi hallardan biridir. Belə olan halda, iqtisadi qeyri-fəal əhalinin mütləq artımının 483,3 min nəfər və ya 51,5 faiz çoxalması əmək ehtiyatlarının (35,2 faiz), iqtisadi fəal əhalinin (31,1 faiz), eləcə də əmək qabiliyyətli əhalinin (36,8 faiz) artım sürətini üstələyir. Bu isə o deməkdir ki, iqtisadi qeyri-fəal əhalinin sayına mütənasib şəkildə himayədə yaşayanların sayı xeyli artmışdır ki, bu da, sosial müavinətin geniş yayılmasına, əmək qabiliyyətli əhali arasında ələbaxımlıq əhval-ruhiyyəsinin yaranmasına, hətta, tüfeyliliyin artmasına və fərdi məsuliyyətin zəifləməsinə səbəb olur. Digər tərəfdən, 1-ci cədvəldən göründüyü kimi, müqayisə edilən dövrdə iqtisadiyyatda muzdla işləyənlərin sayı 284,7 min nəfər və ya cəmi 23,4 faiz artaraq 1217,8 min nəfərdən 1502,8 min nəfərə çatdığı halda, iqtisadiyyatda boş qalmış iş yerlərinin sayı 2,5 dəfədən çox artaraq 5,2 mindən 12,9 minə çatmışdır. Bu isə onu deməyə əsas verir ki, ya həmin boş iş yerlərinin doldurulması üçün müvafiq ixtisaslar üzrə kadr çatışmazlığı mövcud olmuş və yaxud da həmin iş yerləri kifayət qədər münasib iş yerlərindən ibarət olmamışdır. Dissertasiyada ev təsərrüfatı başçısının sosial-iqtisadi statusu üzrə aparılmış araşdırmaların nəticəsində müəyyən edilmişdir ki, 2015-ci ildə onların orta aylıq nominal əmək haqlarının məbləği cəmi 153,8 manat olub, ölkə iqtisadiyyatında muzdla işləyənlərin orta aylıq nominal əmək haqlarının məbləğinin (449,9 manat) cəmi 34,6 faizini, müvafiq surətdə onların adambaşına düşən pul gəlirlərinin məbləği isə cəmi 251,8 manat olub, ölkə üzrə mövcud olmuş müvafiq göstəricinin (4380,1 manat) cəmi 5,7 faizini təşkil etmişdir. Bu isə sahibkarlıq sahəsində məşğul olanların gəlirlərinin hələ də aşağı olmasından xəbər verir. Apardığımız tədqiqatın nəticəsində müəyyən edilmişdir ki, 2000-2015-ci illərdə respublikamızda mövcud olmuş əmək ehtiyatlarının sayı 35,2 faiz artaraq 4685,5 min nəfərdən 6335,9 min nəfərə, əmək qabiliyyətli yaşda olan əmək qabiliyyətli əhalinin sayı isə 36,8 faiz artaraq 4530,8 min nəfərdən 6198,7 min nəfərə gəlib çatmışdır. Bu dövrdə ölkə iqtisadiyyatında məşğul olanların sayı da xeyli, yəni 21,2 faiz çoxalaraq 3855,5 min nəfərdən 4671,6 min nəfərə

qalxmışdır. Başqa sözlə desək əmək ehtiyatlarının tərkibində iqtisadiyyatda məşğul olanların xüsusi çəkisi 8,6 faiz bənd azalaraq 82,3 faizdən 73,7 faizə, əmək qabiliyyətli yaşda olan əmək qabiliyyətli əhalinin tərkibində isə 10,5 faiz bənd azalaraq 85,7 faizdən 75,2 faizə düşmüşdür. Ən əsası isə müqayisə edilən dövrdə ölkəmizdə mövcud olan iqtisadi fəal əhalinin (məşğul və işsiz əhalinin cəmi) sayı 12,5 faiz artaraq 4370,2 min nəfərdən 4915,3 min nəfərə, o cümlədən məşğul əhalinin sayı 12,1 faiz artaraq 3855,5 min nəfərdən 4671,6 min nəfərə qalxmış; işsizlərin sayı isə 49,7 faiz artaraq 514,7 min nəfərdən 258,8 min nəfərə düşmüşdür. Başqa sözlə desək, iqtisadiyyatda məşğul olanların iqtisadi fəal əhalinin tərkibindəki xüsusi çəkisi 6,9 faiz bəndi artaraq 88,2 faizdən 95,1 faizə, işsizlərin xüsusi çəkisi isə 6,9 faiz bənd azalaraq 11,8 faizdən 4,9 faizə düşmüşdür. İqtisadiyyatda məşğul olanların mülkiyyət formaları arasında bölgüsündə baş vermiş dəyişikliklərə gəldikdə isə, onu demək lazımdır ki, müqayisə edilən dövrdə (2000-2015-ci illərdə) ölkə iqtisadiyyatında məşğul olanlar arasında dövlət mülkiyyətində işləyənlərin sayı 8,0 faiz azalaraq 1278,2 min nəfərdən 1176,1 min nəfərə düşərək, onların xüsusi çəkisi 8,0 faiz bənd azalaraq 33,2 faizdən 25,2 faizə qalxmış; qeyri-dövlət mülkiyyətində məşğul olanların sayı isə əksinə 35,6 faiz artaraq 2577,3 min nəfərdən 3495,3 min nəfərə qalxmış, xüsusi çəkisi isə müvafiq surətdə 8,0 faiz bənd artaraq 66,8 faizdən 74,8 faizədək yüksəlmişdir. Bu hal ölkədə bazar iqtisadiyyatı strukturlarının dönmədən inkişaf edib dəyişdiyini və dinamik xarakter aldığını göstərir. Bunu Ümumi Daxili Məhsul istehsalında qeyri-dövlət mülkiyyətinin tutduğu xüsusi çəkisinin dəyişməsi də təsdiq edir. Belə ki, əgər 2000-ci ildə respublikamızda istehsal edilmiş ÜDM-un 70,8 faizi qeyri-dövlət mülkiyyətinin payına düşmüşdürsə, bu göstərici yüksələrək 2015-ci ildə 81,2 faiz təşkil etmişdir.

Respublikamızda məşğul olan əhalinin tərkibində, həm əmək qabiliyyətli yaşdan yuxarı, həm də aşağı yaşda olan məşğul şəxslərin sayının azalması əmək bazarında, eləcə də əmək ehtiyatlarında baş verən müsbət hal olmaqla, sosial siyasətdə aparılan doğru islahatların nəticəsi kimi qiymətləndirilə bilər. Əmək ehtiyatlarının keyfiyyətcə yaxşılaşması bütövlükdə əhalinin həyat səviyyəsinin keyfiyyətcə yaxşılaşmasına gətirir.

Əmək ehtiyatları və əhalinin məşğulluğu sahəsində statistik məlumatların təhlilindən görünür ki, 2000-2015-ci illər ərzində əmək ehtiyatlarının tərkibində iqtisadi fəal əhalinin payı 80,1%-dən 77,0%-ə düşdüyündən, iqtisadi fəal əhalinin özünün tərkibində iqtisadiyyatda məşğul olanların payı 98,7 faizdən 95,8 faizə düşmüşdür. Məşğul əhalinin sayı 2000-2015-ci illərdə 21,6 faiz artaraq 3855,8 min nəfərdən 4671,6 min

nəfərə qalxmışdır. Məşğulluğun mülkiyyət növlərinə görə bölgüsünün təhlilinə əsasən bu, dövlət və qeyri-dövlət sektorunda işləyənlərin sayında baş verən dəyişikliklərlə əlaqədardır. Əmək ehtiyatlarına uyğun olaraq, dövlət sektorunda məşğul olanların sayı 8,0 faiz azalaraq 1278,1 min nəfərdən 1176,1 min nəfərə düşmüş və bazar iqtisadiyyatına uyğun olaraq qeyri-dövlət sektorunda işləyənlərin sayı isə 35,6 faiz artaraq 2537,3 min nəfərdən 3495,5 min nəfərə çatmışdır. Əhalinin gəlir mənbələrinə görə bölgüsünə əsasən, 16,9% əhali gəlirlərinin əsas hissəsini dövlət sektorunda işləməklə əldə edir.

Qeyri-dövlət sektorunda işləyənlərin sayının artım sürəti dövlət sektorunda işləyənlərin sayının azalma sürətində 27,6 faiz bəndi qabaqlayır. Beləliklə, dövlət büdcəsindən əmək haqqı alanların sayının azalma sürəti hələ də xeyli aşağıdır.

Təhlilin nəticəsi olaraq qeyd etmək lazımdır ki, hər iki halda artıb-azalma tempindəki dəyişiklik tarazlıq şəklində baş vermiş, deməli, kəskin trend dəyişiklikləri yoxdur. Bu da onu göstərir ki, ölkədə dövrü olaraq bazar iqtisadiyyatına keçid baş vermişdir. Məhz qeyri-dövlət sektorunda məşğulluğun tərkibində baş verən dəyişikliklər məşğulluğun mülkiyyət növünə görə bölgüsünün keyfiyyət dəyişikliklərinə gətirir.

İqtisadiyyatda məşğul olan muzdla işləyənlərin sayı 2005-2016-cı illər ərzində 11,7 faiz artmışdırsa, onların tərkibində iqtisadiyyatda muzdla məşğul olan qadınların sayı isə 10,6 faiz artmışdır ki, bu da xidmət sferasında qadın əməyindən istifadənin artması ilə əlaqədardır. 2005-2016-cı illərdə 16,7 faiz artaraq 1297,1 min nəfərdən 1514,6 min nəfərə, o cümlədən qadınların sayı 5,8 faiz artaraq 591,7 min nəfərdən 625,8 min nəfərə qalxmışdır. Müqayisə edilən dövrdə iqtisadiyyatda muzdla işləyən qadınların ölkə iqtisadiyyatında muzdla işləyənlərin arasındakı xüsusi çəkisi 69,8 faizə (1297,1 min nəfərin 413,2 min nəfəri) xidmət sahələrinin payına düşmüşdürsə, bu göstərici 2016-cı ildə 71,0 faizə qalxmışdır (625,8 min nəfərin 444,5 min nəfəri). İqtisadiyyatda məşğul olanların orta aylıq əmək haqqı da dinamik olaraq artmış və 2015-ci ildə 466,9 manat təşkil etmişdir.

Deyilənlərdən belə qənaətə gəlmək olur ki, məşğulluq həyat səviyyəsinin yaxşılaşmasında səbəb, gəlirlər isə nəticə kimi çıxış edir, yəni məşğulluq əhalinin həyat səviyyəsinin yüksəlməsinə təsir edən amil, gəlir isə onu səciyyələndirən göstəricidir. Bu mənada məşğulluğun təmin edilməsini həyat səviyyəsinin yüksəlməsində əsas meyar adlandırmaq olar. Həyat səviyyəsi məşğulluğun ilkin şərti kimi zəruri iş yerlərinin yaradılmasından, işçi qüvvəsinin ölkə ərazisində səmərəli yerləşməsindən və ölkənin malik

olduğu əmək potensialından düzgün istifadədən xeyli asılıdır. 2010-cu ildə əmək qabiliyyətli yaşda iqtisadi fəal əhalinin 93,3 faizi, 2015-ci ildə isə 94,8 faizi iqtisadiyyatda məşğul olmuşdur. 2010-2015-ci illərdə əmək qabiliyyətli yaşda əmək qabiliyyətli əhali tərəfindən tutulan iş yerlərinin sayı 96,7 faizdən 89,5 faizə düşmüş, əmək qabiliyyətli yaşdan yuxarı şəxslərin və yeniyetmələr tərəfindən tutulan iş yerlərinin sayı isə 3,3 faizdən 10,5 faizə qalxmışdır. Nəticədə bu dövrdə məşğulluğun səviyyəsi də 93,5 faizdən 98,4 faizə yüksəlmişdir. Məşğulluğun səviyyəsinin bu cür artımını müsbət hal adlandırmaq olmaz. Çünki bu illər ərzində əmək qabiliyyətli yaşda əmək qabiliyyətli əhali tərəfindən tutulan iş yerlərinin xüsusi çəkisi 95,8 faizdən 89,5 faizə düşmüşdür. Burada, həmin dövrdə işləyən pensiyaçıların gəlirlərinin tərkibində pensiyanın payının 50 faiz təşkil etməsi əsas təsiredici amil olmuşdur.

Bizim fikrimizcə, dövlət özünün tənzimləmə təsirini, özəl və dövlət sektorlarının inkişafı üçün şərait və stimulların yaradılması yolu ilə göstərməlidir və bu yolla iqtisadiyyatda məşğulluğun səviyyəsini qaldırmalıdır.

Müasir şəraitdə məşğulluğun artırılması üçün vacib şərtlərdən biri – sahibkarlığın inkişafı üçün şəraitin yaradılmasıdır. Bunun üçün isə, investisiya, vergi və maliyyə-kredit siyasətinin keçirilməsi zamanı məşğulluq siyasətinin maraqlarını nəzərə almaq lazımdır.

Bizə elə gəlir ki, məşğulluq və işsizlik nöqteyi-nəzərindən, dövlətin apardığı kredit siyasəti böyük rol oynaya bilər. Eləcə də, və bunu xarici təcrübə də göstərir ki, kiçik müəssisələrin stimullaşdırılması və uğurlu inkişafı yeni iş yerlərinin yaradılmasına gətirib çıxarır.

Fikrimizcə, məşğulluğun böyük ehtiyatları XIX–XX əsrlərdə ölkəmizdə geniş yayılmış, lakin unudulmuş xalq sənətkarlığının bərpasındadır.

Bəzi Avropa ölkələrində məşğulluğun artması yollarından biri – tarifləşdirilmiş iş vaxtının azalmasıdır. Bu metoddan ABŞ-da və Yaponiyada istifadə olunur. Almaniyada «20 faiz az işləyib, 10 faiz az maaş almaq» üsulu tətbiq olunur. Fəhlələr bu metodu aktiv olaraq dəstəkləyirlər. BMT-nin BƏT-nın ekspertləri tərəfindən Avropa ölkələrində, ABŞ-da və Yaponiyada tədqiqatlar aparılmışdır. Nəticədə belə müəyyən olunmuşdur ki, natamam iş gününə keçmək istəyən tam məşğul olanların sayı, natamam iş günü çalışan, lakin tam məşğul olmaq istəyənlərin sayından 3 dəfə çoxdur. Azərbaycanda iş həftəsinin uzunluğu qanunvericiliklə 40 saat müəyyən edilmişdir. Lakin bir çox özəl müəssisələrdə bu şərtə əməl edilmir, və bu da məşğulluğun artımını gecikdirir. Məşğulluğun artırılmasının yollarından biri də növbəlilik

əmsalının artırılmasıdır. Dinamik fəaliyyət göstərən müəssisədə üç növbəli iş sistemi yaradıla bilər.

**3. İş qüvvəsinin hərəkətinin intensivliyini göstərən iş qüvvəsinin dövriyyəsi indeksinin və iş qüvvəsinin ümumi dövriyyəsi göstəricisinin hesablanması və təhlil üçün istifadə edilməsi üsulunun təklif edilməsinin əsaslandırılması.**

Azərbaycan iqtisadiyyatının bazar sisteminə keçməsi iş qüvvəsinin hərəkətinin intensivliyinin artması ilə müşayiət edilir. Keçid dövründən başlayaraq, Azərbaycanda məşğul əhalinin daxili mexaniki hərəkətində əhəmiyyətli dəyişikliklər olmuşdur. Bu dəyişikliklər aşağıdakı sahələr arasında baş vermişdir:

- müxtəlif mülkiyyət formaları və iqtisadiyyatın sektorları arasında;
- sahələr və müəssisələr arasında;
- müxtəlif məşğulluq növləri arasında;
- ərazilər üzrə (ölkənin regionları arasında, şəhər və kənd arasında).

İş qüvvəsinin hərəkəti (axıcılığı) əmək bazarının xarakterik xüsusiyyətlərindən biridir. Bu sahədə baş verən dəyişikliklər daimi xarakter daşıdığından onun öyrənilməsi, təhlil edilib qiymətləndirilməsinə böyük ehtiyac vardır. Çünki, qeyd edilən proses – obyektiv xarakter daşıyır və təkcə neqativ səbəblərlə deyil (istehsal səviyyəsinin azalması, məşğulluq və əməyin ödənilməsi siyasətində yol verilən nöqsanlar), daha çox texniki tərəqqi, istehsalın ərazi üzrə yerləşdirilməsində baş verən dəyişikliklər, iqtisadiyyatın yeni sahələrinin yaranması, ixtisaslaşma və kooperasiya proseslərinin inkişafı və digər istehsal və sosial-iqtisadi amillərlə bağlıdır.

BƏT-nın məlumatlarında iş qüvvəsi axıcılığının əsas kateqoriyalarına aşağıdakılar: işini itirən məşğul əhali; iş axtaran məşğul olmayan şəxslər; təhsil almaqla, hamiləlik və uşağa qulluğa görə məzuniyyətlə, xəstəlik, əlillik, təqaüdə çıxmaq, immiqrasiya ilə əlaqədar olaraq əmək bazarını tərk edən şəxslər; ilk dəfə əmək bazarına daxil olan şəxslər (məsələn, məktəb məzunları, immiqrantlar); əmək bazarına qayıdan şəxslər (peşə-ixtisas əldə edən şəxslər, uşağa qulluğa görə məzuniyyəti bitən şəxslər, əlavə gəlirə ehtiyacı olan təqaüdçülər) daxil edilmişdir. Aparılan təhlilin tam olması üçün, bu siyahını, sahələrarası yerdəyişmələri (bir sahədən digər sahəyə keçid) və məşğulluq statusunun dəyişməsini (muzdlu və ya muzdsuz işləyənlər) xarakterizə edən göstəricilərlə tamamlamaq olar. Müqayisəli təhlil aparmaq üçünsə, aşağıdakı göstəricilər sistemindən istifadə edilir: işçilərin say indeksi, iş qüvvəsinin ümumi dövriyyə göstəriciləri, işə qəbul və işdən çıxma üzrə dövriyyə göstəriciləri, və s. İş qüvvəsinin sahələrarası, həmçinin iqtisadiyyatın regionları və sektorları üzrə hərəkətinin təhlili və

qiymətləndirilməsi isə əmək üzrə cari və illik hesabatlara əsaslanır. İş qüvvəsinin hərəkət miqyasının və istiqamətlərinin qiymətləndirilməsi iş qüvvəsinin regionlar, sahələr və sektorlar üzrə həcmlərinin artması və ya azalmasının müqayisəsi vasitəsi ilə həyata keçirilir.

Hal-hazırda, təcrübədə, iş yerlərinin hərəkətinin statistikası vakant iş yerlərinin qeydiyyatı, və işçilərin işdən çıxması və yeni iş yerlərinin yaradılması üzrə müəssisə və təşkilatların verdiyi proqnozların öyrənilməsi ilə məhdudlaşır. Belə məlumatlar, əmək bazarında olan gərginliyi qiymətləndirməyə, bir vakant iş yerinə düşən işsizlərin sayını müəyyən etməyə imkan verir. İşçilərin işdən çıxması və yeni iş yerlərinin yaradılması haqqında müəssisə və təşkilatların verdiyi məlumatlar əsasında isə növbəti dövr üçün proqnozlar vermək imkanı yaranır. Statistik məlumatlardan göründüyü kimi, 2010-cu ilə nisbətən, 2015-ci ildə işdən çıxmış işçilərin sayı 14,0 faiz artmış və işdən çıxanlar ümumi işçilərin 14,1 faizini təşkil etmişdir. Əmək bazarında tələb-təklif balansının müasir vəziyyətinin təhlili göstərir ki, 2000-ci ildə mövcud iş yerlərinin sayı əmək ehtiyatlarının 79,2 faizinin məşğulluğunu təmin etmək üçün yetərli olmuş və 976,1 min iş yeri az olmuşdur. Əmək ehtiyatlarında xüsusi çəkisi, müvafiq olaraq, 3,4 və 0,2 faiz olan əmək qabiliyyətli yaşdan yuxarı şəxslər və yeniyetmələr mövcud iş yerlərini tutduqları halda, əmək ehtiyatlarının tərkibində 96,7 faiz təşkil edən əmək qabiliyyətli yaşda əmək qabiliyyətli əhalinin isə 67 faizi işlə təmin olunmuşdur.

**4. Ölkədə baş verən əhalinin miqrasiyası proseslərinin əmək bazarına təsirinin göstərilməsi, Azərbaycanda işsizliyin səviyyəsi və ölkədən daimi yaşamaq üçün gedənlərin sayı arasında kəskin asılılıq və çox güclü müsbət korrelyasiya əlaqəsinin müəyyən olunması**.

Həm daxili, həm də xarici miqrasiyanın əmək bazarında iş qüvvəsinə tələb və təklifin formalaşmasına təsiri kifayət qədər böyükdür. Əksər hallarda miqrasiya həm əmək bazarında iş qüvvəsinə tələb və təklif arasında kəmiyyət nisbətlərini dəyişir, həm də, iş qüvvəsinin keyfiyyətinə böyük təsir göstərir.

Emiqrasiya ölkəsi miqrantların gedişindən sonra aydın şəkildə itkilərə məruz qalır. Belə təəssürat yaranır ki, qəbul edən ölkələr və miqrantların özləri bu prosesdə udur, halbuki bu zaman emiqrasiya ölkələri itirir.

Maraqlıdır, əmək miqrantları Azərbaycana faydalıdır, ya yox? Bu proseslərin ölkəmizə ziyan vermə ehtimalı varmı? Birmənalı demək lazımdır ki, əlbəttə, qeyri-leqal miqrasiya proseslərinin qarşısı alınmalıdır və buna qarşı mübarizə labüddür. Təbii ki, leqal yolla ölkəyə gələn, əmək

fəaliyyəti üçün icazə və lisenziyası olan miqrantların əmək bazarına təsiri müsbətdir və ölkəyə faydalıdır.

Qeyd etmək lazımdır ki, ölkədaxili miqrasiya növlərindən olan mütərəddid (daimi gediş və qayıdış, «rəqqas formalı» adlandırılan miqrasiya növü) və mövsümi miqrasiya regionlardan çoxlu sayda sərbəst işçi qüvvəsinin Bakı şəhərinə işləməyə gəlməsinə səbəb olmuşdur. Lakin bu işçi qüvvəsinin, faktiki olaraq, heç bir qurum tərəfindən qeydə alınmaması səbəbindən, onun kəmiyyət və keyfiyyət göstəricilərini təhlil etmək mümkün deyil. Ölkədə qeydiyyatdan keçmiş xarici əmək miqrantlarının da kifayət qədər böyük bir hissəsi bu sahədə işləyir.

Azərbaycan Respublikasının rəsmi statistik məlumatlarına əsasən, 2000-2016-cı illər ərzində Azərbaycana daimi yaşamaq üçün gəlmiş miqrantların sayı 27,3 faiz azalaraq, 4,4 min nəfərdən 3,2 min nəfərə, daimi yaşamaq üçün başqa yerlərə gedənlərin sayı isə 82,9 faiz və ya 5,8 dəfə azalaraq 9,9 min nəfərdən 1,7 min nəfərə düşmüş, miqrasiya saldosu isə mənfi 5,5 min nəfər əvəzinə müsbət 1,5 min nəfər təşkil etmişdir.

Qeyd edək ki, əmək miqrantları tərəfindən Azərbaycana köçürülən pulların ən böyük hissəsi Rusiyadan gəlir. Bütün köçürülən pulların 85-90 faizi məhz Rusiyadakı miqrantların payına düşür. Rusiyanın Mərkəzi bankının sonuncu dərc edilmiş məlumatlarına görə, 2015-ci ildə Rusiyadan Azərbaycana 300 milyon dollar pul köçürülmüşdür (qeyri-rəsmi məlumatlara görə - bundan iki dəfə çox). Bu o deməkdir ki, 2015-ci ildə Azərbaycandan olan əmək miqrantları Rusiyadan öz vətənlərinə 600 milyon dollara qədər pul köçürmüşlər. Lakin qeyd etmək lazımdır ki, 2010-cu ildə bu məbləğ 2 milyard dollara bərabər idi. Bunun əsas səbəblərindən biri, rublun devalvasiyası, Rusiyaya qarşı tətbiq edilən sanksiyalar, inflyasiya, əmtəə dövriyyəsinin azalması və Rusiyada baş verən digər neqativ iqtisadi proseslərdir.

Sual olunur ki, nəyə görə, Rusiyadakı böhrana baxmayaraq, orada miqrant kimi yaşayan Azərbaycan vətəndaşları ölkəmizə geri qayıtmırlar? Təəssüflər olsun ki, vətənə qayıtdıqda, onlar yenə də iqtisadi və sosial problemlərlə qarşılaşacaqlar. Sözsüz ki, Azərbaycan hökuməti yeni iş yerləri yaradır, lakin əmək miqrantlarının hamısına bu iş yerləri yetərli deyil.

Azərbaycanlı miqrantların Rusiyadan ölkəmizə göndərdikləri pulların məbləği Azərbaycanın ÜDM-un təxminən cəmi 1,3 faizini təşkil edir. Yəni Azərbaycan, regionda yeganə ölkədir ki, Rusiyadan gələn pul vəsaitlərindən asılı deyil. Müqayisə üçün göstərək ki, Dünya bankının məlumatlarına görə, Ermənistan iqtisadiyyatının 21 faizi xarici ölkələrdən köçürülən pul vəsaitlərindən asılıdır. Gürcüstan üçün analoji göstərici 12, Qırğızıstan üçün – 31,5, Moldova üçün – 25, Tacikistan üçün – 42, Ukrayna üçün – 5,5, Litva

üçün – 4,5, Özbəkistan üçün isə 12 faiz təşkil edirdi. Bu ölkələrə göndərilən köçürmələrin önəmli bir hissəsini Rusiyadan gələn pul vəsaitləri təşkil edir.

Xüsusilə son dövrlər bölgədə baş verən hadisələr, Rusiyadakı azərbaycanlı miqrantların müəyyən hissəsinin geri dönməsi ehtimalının olması, kiçik və orta sahibkarlığın inkişafını ön plana çıxarmağa səbəb olub. Biz hesab edirik, Azərbaycan hökumətinin kiçik sahibkarlığın inkişafı ilə bağlı xüsusi proqram qəbul etməsinə ehtiyac var. Rusiyadan gələn azərbaycanlıların dərhal işlə təmin olunması üçün kiçik sahibkarlığın inkişafına böyük ehtiyac duyulur.

**Cədvəl 2**

**Azərbaycanda 2000-2016-cı illər ərzində işsizliyin səviyyəsi və ölkədən daimi yaşamaq üçün gedənlərin sayı arasında əlaqə**

| | İşsizlik səviyyəsi (%) | Ölkədən daimi yaşamaq üçün gedənlər (min nəfər) |
|---|---|---|
| 2000 | 11,8 | 9,9 |
| 2005 | 7,3 | 2,9 |
| 2010 | 5,6 | 0,8 |
| 2015 | 5,0 | 1,6 |
| 2016 | 5,1 | 1,7 |

Mənbə: www.ilo.org www.worldbank.org; www.stat.gov.az

**Qrafik 2**




r= 0,92529

**Qeyd:** Qrafik müəllif tərəfindən tərtib edilmişdir.

Qrafikin və cədvəlin təhlili nəticəsində görürük ki, Azərbaycanda 2000-2016-cı illər ərzində işsizliyin səviyyəsi və ölkədən daimi yaşamaq üçün gedənlərin sayı arasında çox güclü müsbət (r=0,92529) korrelyasiya əlaqəsi müşahidə olunmuşdur.

**5. Azərbaycanın əmək bazarında məşğulluğun tənzimlənməsi sahəsində perspektiv dövlət siyasətinin hədəflərinin müəyyən edilməsi, əhalinin sosial müdafiəsi sahəsində mövcud olan problemlərin aşkara çıxarılması, iqtisadiyyatda əhalinin səmərəli məşğulluğunun artırılması istiqamətində elmi cəhətdən əsaslandırılmış təkliflərin irəli sürülməsi.**

«Məşğulluq haqqında» Azərbaycan Respublikasının Qanununda qeyd edilən məşğulluğun ümumi strategiyasının uçotu, müəyyən zaman kəsiyində konkret məşğulluq siyasətində nəzərə alınmalı ümumi istiqaməti göstərir. Məşğulluq siyasəti sosial cəhətdən ədalətli məşğulluq səviyyəsinin təmin edilməsi, iş qüvvəsinin sahələr üzrə hərəkətinin struktur dəyişikliklərinin maraq dairəsi çərçivəsində baş verməsi, əmək məhsuldarlığının artması və maksimal dərəcədə işsizlərin dəstəklənməsi şəraitində həyata keçirilməlidir. İşsizliyi yaradan səbəblərin aradan qaldırılması və ya yumşaldılması sosial və iqtisadi stabilliyin, davamlı inkişafın, islahatların uğurla aparılmasının əsas şərtidir. Əmək bazarının durumuna bir çox iqtisadi və sosial amillər təsir edir. Eyni zamanda, əmək bazarı da bu amillərə öz təsirini göstərir. Əmək bazarının dövlət tənzimlənməsi üç istiqamət üzrə həyata keçirilir: məşğul olmayan əhalinin işlə təmin edilməsi və peşə-ixtisas hazırlığı üzrə yardımın göstərilməsi; çevik əmək bazarının yaradılmasının stimullaşdırılması; işsizliyə görə sosial müdafiə. Dövlətin sosial proqramları əmək bazarına böyük təsir göstərir (yoxsullara yardım, işsizliyə görə müavinət, müxtəlif sosial ödənişlər, təqaüd təminatı və s.). Bu proqramlar əhalinin sosial-iqtisadi vəziyyətinin müəyyən dərəcədə stabilləşməsinə dəstək verir, bazarın qeyri-stabilliyini yumşaldır. Əmək bazarının təşkili sahəsində dövlətin iqtisadi siyasət bloku mövcuddur: yeni iş yerlərinin yaradılması, kiçik və orta biznesə yardım, kadrların hazırlanması və yenidən hazırlanması, subsidiyalaşdırılan məşğulluq, miqrasiya siyasəti və ictimai işlər.

Yeni iş yerlərinin yaradılması - ən əhəmiyyətli makroiqtisadi tədbirdir. İnvestisiya və vergi siyasəti kontekstində bu tədbir, yalnız əmək bazarında deyil, bütövlükdə iqtisadiyyatda baş verən proseslərin indikatorudur. Elmi-texniki tərəqqinin müasir səviyyəsi məşğulluğu artırmadan da iqtisadi artımı təmin etməyə imkan verir. Belə şəraitdə yeni iş yerlərinin yaradılması istiqamətində məqsədyönlü siyasət daha aktualdır.

İctimai işlərin təşkili, işsizlərin və 14-18 yaşlarında yetkinlik yaşına çatmayan vətəndaşların müvəqqəti məşğulluğa cəlb edilməsi (dərsdən sonra), azyaşlı vətəndaşların müvəqqəti məşğulluğunu təmin edir, yeniyetmələrin törətdiyi cinayətlərin səviyyəsinin azalmasına təsir edər və aztəminatlı ailələrdən olan uşaqlara maddi yardım etməyə imkan verər.

Azərbaycanda əmək bazarının müsbət dinamika ilə davamlı və dayanıqlı inkişafı üçün bütün şərait yaradılıb. Bununla belə, hələ də kifayət qədər çoxlu sayda insan, xüsusən də əlillər və digər zəif müdafiə olunan əhali kateqoriyaları və iş təcrübəsi olmayan gənclər məşğulluqdan kənardadır və ya iş axtarmaqda çətinlik çəkir. İqtisadi fəallığın artırılması isə, təhsilə, xüsusilə gənclərin peşə və ixtisasa yiyələnməsinə yönəldilən investisiyanın səviyyəsindən asılıdır.

Azərbaycanda müxtəlif sosial proqramlar fəaliyyət göstərir. Onlar, sosial müdafiənin istiqamətləri, regionlar, maliyyə mənbələri və digər amillərə görə fərqlənirlər. Onları birləşdirən cəhət - bu proqramların cəmiyyətdə sosial-iqtisadi vəziyyətin stabilləşməsinə və mövcud olan ən kəskin sosial problemlərin həllinə istiqamətlənməsidir. 2018-ci ilin yanvarın 1-dən Azərbaycan Prezidentinin "İşsizlikdən sığorta haqqında" müvafiq Fərmanı qüvvəyə minir. Bu qanun, hal-hazırda dünyada işsizlikdən sığorta sahəsində mövcud olan mütərəqqi cəhətləri özündə birləşdirərək, ölkəmizdə məşğul əhalinin işsizlikdən müdafiə və işsizliyə görə sığorta ödənişi sisteminin formalaşmasına əsas yaradır. Yeni qanunda, tətbiq edilən sığorta sistemi itirilmiş əməkhaqqının kompensasiya edilməsinə yönəldilmiş təminat formasını - işsizlikdən sığortanın üç növünü nəzərdə tutur: əsas sığorta ödənişini, sığorta ödənişinə əlavəni və minimum sığorta ödənişini. Yeni qanun, işsiz qalan şəxsin yeni iş yeri tapana qədər, itirdiyi gəlirlərinin tam və ya qismən kompensasiya edilməsini nəzərdə tutaraq, onun yenidən əmək bazarında iş tapması üçün yardım edilməsinə xidmət edir. 2018-ci ilin əvvəllərindən, "İşsizlikdən sığorta haqqında" Qanun əsasında yaradılacaq İşsizlikdən Sığorta Fondunda cari ildə toplanması nəzərdə tutulan 89 mln. manat vəsaitin 33,5 mln manatı və ya 37,6 faizi məhz işsizliyə görə sığorta ödənişlərinə yönəldiləcək. 2017-ci ildə bu məqsədlərə cəmi 17,5 mln. manat vəsait yönəldilmişdir. Qanunla nəzərdə tutulan qaydada, dövlət və ya özəl sektorda fəaliyyət göstərən müəssisə və təşkilatların ləğv edilməsi və ya işçilərinin ixtisarı nəticəsində işsiz qalmış və məşğulluq orqanlarında işsiz kimi qeydiyyata alınmış şəxslər sığorta olunacaq və işsizliyə görə sığorta ödənişi ilə təmin olunacaqlar. Bu sahəyə yönəldilən vəsait cari ildən əhəmiyyətli dərəcədə artırılacaqdır. Digər tərəfdən isə, işsizliyə görə müavinətlərin ödənilməsi iş axtarmaq stimullarını azaldır ki, bu da "işsizlik tələsi"ndə özünü büruzə verir. Biz hesab edirik ki, bundan qaçmaq üçün, dövlət, zamanla azalan diferensiallaşdırılmış müavinət dərəcələrini təyin etməlidir.

**Aparılmış tədqiqatın yekunu olaraq, aşağıdakı nəticələr əldə edilmiş və müəyyən təkliflər irəli sürülmüşdür:**

1. Kobb-Duqlas xətti tənlik düstur modelindən istifadə edərək, həmin düsturu tərs tənlik düsturuna çevirməklə, yəni istehsal funksiyası olan ÜDM-dən, istehsal və onun arqumentlərindən (əmək və əsas fond ehtiyatlarından) istifadə edərək əhalinin məşğulluğunu müəyyən riyazi funksiya şəklinə salaraq arqument kimi digər makroiqtisadi göstəricilərin köməyi ilə ölkə iqtisadiyyatında məşğulluğun səviyyəsini qiymətləndirmək və ondan səmərəli istifadə imkanlarını müəyyən etmək mümkün olur.

2. Azərbaycanda 2000-2016-cı illər ərzində işsizliyin səviyyəsi və ölkədən daimi yaşamaq üçün gedənlərin sayı arasında çox güclü müsbət (r=0,92529) korrelyasiya əlaqəsi müşahidə olunmuşdur.

3. Bizim fikrimizcə, Məşğulluq Strategiyası ilk növbədə mövcud makroiqtisadi sxemin daha dolğun tədqiq edilməsi ilə fərqlənməlidir. Daha doğrusu Məşğulluq Strategiyanı konkret maliyyə mənbələrini göstərməklə, infrastrukturun yaradılması üzrə əməli tədbirlərlə (ilk növbədə, regionlarda iş yerlərinin yaradılması üçün) tamamlamaq lazımdır. Strategiyada mütləq şəkildə əmək haqqı, sosial qanunvericilik, kapital qoyuluşları anlayışlarının genişlənməsini nəzərdə tutmaq lazımdır.

4. Bizim fikrimizcə, hökumət tərəfindən təklif olunan Məşğulluq Strategiyası sosial müdafiənin güclənməsində cəmlənməməlidir, belə ki, inkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, sosial müdafiə sisteminin həddən artıq sərt olması sahibkarları qorxudaraq, iş yerlərinin bağlanmasına gətirib çıxarır. Dövlət özünün tənzimləmə təsirini, özəl və dövlət sektorlarının inkişafı üçün şərait və stimulların yaradılması yolu ilə göstərməli və bu yolla iqtisadiyyatda məşğulluğun səviyyəsini qaldırmalıdır.

5. Rusiya Federasiyasından daimi yaşamaq üçün ölkəmizə gələn əmək qabiliyyətli azərbaycanlı əhalisinin işlə təmin olunması üçün kiçik sahibkarlığın inkişafına böyük ehtiyac vardır. Bu məşğulluq və işsizlik nöqteyi-nəzərindən, dövlətin apardığı kredit siyasəti bu məsələnin həllində böyük rol oynaya bilər. Bunu xarici təcrübə də göstərir. Belə ki, kiçik müəssisələrin stimullaşdırılması və uğurlu inkişafı yeni iş yerlərinin yaradılmasına gətirib çıxarır.

6. Fikrimizcə, məşğulluğun təmin edilməsinin mühüm ehtiyatlarından biri də XIX–XX əsrlərdə ölkəmizdə geniş yayılmış, lakin unudulmuş xalq sənətkarlığının bərpasından ibarətdir. İşsiz əhalinin ictimai işlərə cəlb edilməsi də məşğulluğun səviyyəsinin artırılmasına dəstək verə bilər.

7. Kiçik sahibkarlığın yaradılmasına, maliyyələşdirilməsinə və kreditləşdirilməsinə dövlət dəstəyinin, eləcə də gömrük güzəştlərinin verilməsi üzrə tədbirlərin işlənib hazırlanmasına da ehtiyac vardır.

8. Bizə elə gəlir ki, şəxsi iş yerini yaradanlara dövlət məşğulluq xidməti tərəfindən işsizliyə görə illik müavinət həcmində subsidiyalar verilməsi də məqsədəuyğun olardı. Ancaq, əgər mövcud iş yerlərinin qorunub saxlanması üzrə işlər aparılmasa, bu tədbirlər kifayət etməyəcək və bu işlərin, dövlətin köməyi olmadan, həyata keçirilməsi çətinlik törədə bilər.

9. Bizim fikrimizcə, dövlət müəssisələrində istifadə edilməmiş istehsalat sahələrində icarə vasitəsi ilə kiçik və orta biznesə aid müəssisələr yaratmaq, və eləcə də, sahibkarları mövcud istehsalat resurslarından daha səmərəli istifadə etməyə stimullaşdırmaq da məqsədə uyğun olardı.

10. Məşğulluğun artırılmasının yollarından biri də növbəlilik əmsalının artırılmasıdır. Bizə belə gəlir ki, dinamik fəaliyyət göstərən müəssisədə üç növbəli iş sistemi yaradıla bilər.

11. Məşğulluğun strukturunun dəyişdirilməsi, ölkənin iqtisadi fəal əhalisinin inkişafı üçün lazımi şəraitin yaradılması, müəssisələrdə izafi məşğulluğun səviyyəsini azaltmaq, azad edilmiş işçiləri tez bir zamanda digər sahələrə və məşğulluq növlərinə yenidən yerləşdirmək lazımdır.

12. Əmək bazarının inkişafı, əmək bazarında tələb-təklif arasındakı nisbətliyin tənzimlənməsi məqsədi ilə, dövlət tərəfindən, müəssisələr qarşısında, ayrı-ayrı işçilərin iş vaxtının azaldılması üzrə tədbirlərin həyata keçirilməsi tələbi qoyulur. Belə olduqda, əmək resurslarının çatışmazlığı yeni iş yerlərinin yaradılması yolu ilə kompensasiya edilir. Müəssisələri belə siyasətə yalnız subsidiya vasitəsi ilə cəlb etmək olar. Dövlətin digər tənzimləmə aləti - gənc mütəxəssislərin əmək bazarına inteqrasiya olunmasında yardım edilməsidir. Çox zaman gənclər əmək bazarında, təcrübəli işçilərlə müqayisədə daha çətin vəziyyətdə olurlar. Bu problem, əmək bazarında ciddi nəzarət olan ölkələrdə daha kəskin xarakter daşıyır.

13. Məşğulluğun tənzimlənməsinin liberallıq səviyyəsinə görə, 2016-cı ildə Azərbaycan dünyada 33-cü yeri tutmuşdur. Bu, ölkəmizin həmin bu sahədə nisbətən sağçı siyasət aparmasını göstərir. İşə qəbul və işdən azad edilmə prosedurалarının, minimal əmək haqqının dövlət tərəfindən tənzimlənməsi, iqtisadi inkişafın dərəcəsini şərtləndirmir.

**Tədqiqatın əsas məzmunu müəllifin çap edilmiş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**

1. Əhalinin məşğulluğunun tənzimlənməsi problemləri // Müasir mərhələdə Azərbaycanın sosial-iqtisadi inkişafının əsas meylləri : məqalələr toplusu, IV buraxılış. - Bakı, Elm, 1999, s.27-29.
2. Əhalinin sosial müdafiəsi haqqında dövlət təminatı // Müasir mərhələdə Azərbaycanın sosial-iqtisadi inkişafının əsas meylləri : məqalələr toplusu, V buraxılış - . Bakı, Elm, 1999, s.26-27.
3. Əhalinin məşğulluğunun tənzimlənməsinə sosial təminat sistemindəki islahatların təsiri // Müasir mərhələdə Azərbaycanın sosial-iqtisadi inkişafının əsas meylləri : məqalələr toplusu, VIII buraxılı. .- Bakı, Elm, 2000, s.26-30.
4. Əhalinin məşğulluğunun tənzimlənməsində qaçqın və məcburi köçkünlərin sosial müdafiəsinin təmin edilməsi // Ekologiya-Fəlsəfə-Mədəniyyət : Elmi məqalələr məcmuəsi. -Bakı, Elm, 2000, s. 224-226.
5. Beynəlxalq təcrübədə məşğulluğun tənzimlənməsinin əsas modelləri // AMEA-nın Xəbərləri, İqtisadiyyat seriyası №3. - Bakı, 2013, s. 222-230.
6. Əmək bazarının tənzimlənməsi üzrə əsas konsepsiyaların təhlili // AMEA İqtisadiyyat İnstitutu, Elmi Əsərlər №1. - Bakı, 2014, s.112-117.
7. Azərbaycan iqtisadiyyatında məşğulluq səviyyəsinin təhlili və qiymətləndirilməsi // AMEA İqtisadiyyat İnstitutu, Elmi Əsərlər №2. - Bakı, 2015, s.85-91.
8. Azərbaycanda işsizliyin dövlət tərəfindən tənzimlənməsi // AMEA İqtisadiyyat İnstitutu, Elmi Əsərlər №3. - Bakı, 2015, s.64-70.
9. Beynəlxalq miqrasiya proseslərinin Azərbaycanın əmək bazarına təsiri: iqtisadi və sosial effektlər // AMEA İqtisadiyyat İnstitutu, Elmi Əsərlər №4. - Bakı, 2015, s.156-163.
10. Miqrasiya proseslərinin Azərbaycanın əmək bazarına təsiri və onların dövlət tərəfindən tənzimlənməsi // AMEA İqtisadiyyat İnstitutu, Elmi Əsərlər №5. - Bakı, 2015, s.100-106.
11. Əhalinin sosial müdafiəsi və əmək bazarının təkmilləşdirilməsi istiqamətləri // AMEA İqtisadiyyat İnstitutu, Elmi Əsərlər №6. - Bakı, 2015, s.88-94.
12. Analysis and evaluation of the level of employment in the economy of Azerbaijan // Інвестиції: практика та досвід, науково-практичный журнал, № 13-14. - Липень, 2015, с.40-44.

13. Влияние миграционных процессов на рынок труда Азербайджана // Экономика и предпринимательство, № 10 (ч.1). - М., 2015, с. 49-54.

14. Əmək bazarının formalaşması şəraitində əhalinin məşğulluğunun tənzimlənməsi istiqamətləri.Aqil Əlirza oğlu Əliyevin 90 illiyinə həsr olunmuş elmi-praktik konfransın materialları.- Bakı, 2016, s. 96-101.

15. Azərbaycanda əhalinin iqtisadi fəallığı və məşğulluğu // Gənc türkoloqların I Türkoloji Qurultayın 90 illiyinə həsr olunmuş konfrans (elmi-praktik konfrans materialları). – Bakı, 2016, s.94-96.

**Аллахъяров Рауф Мирзага оглу**

## Пути регулирования занятости населения в условиях формирования рынка труда

### Резюме

Диссертация состоит из введения, трех глав, выводов и рекомендаций, а также списка использованной литературы.

Во введении отражена актуальность исследования, сущность поставленных в диссертационной работе проблем, цель и задачи исследования, его основные положения, научные основы полученных результатов исследования, а также их практическая значимость.

В первой главе «Научно-теоретические взгляды на формирование рынка труда и регулирование занятости» были исследованы научно-теоретические взгляды на формирование и регулирование занятости. В этой главе, на основе исследования моделей равновесия на рынке труда и факторов, влияющих на спрос и предложение рабочей силы, были раскрыты основные направления, формы и методы регулирования занятости.

Во второй главе «Изменения, произошедшие на рынке труда и в обеспечении занятости в Азербайджане за годы независимости» проведен анализ и оценка изменений, произошедших в процессе формирования занятости в Азербайджане за годы независимости. Были исследованы специфические особенности формирования рынка труда и обеспечения занятости, проведен анализ и оценка современного состояния занятости и безработицы, движения рабочей силы и рабочих мест в Азербайджане.

В третьей главе «Регулирование занятости и направления социальной защиты населения» были исследованы проблемы государственного регулирования рынка труда и вопросы социальной защиты населения.

В конце диссертационной работы были даны выводы и предложения, полученные в результате исследования, а также список использованной литературы.

**Allahyarov Rauf Mirzaga**

## Directions of regulation of employment of the population in the conditions of formation of a labor market

### Summary

The thesis consists of an introduction, three chapters, conclusions and recommendations, as well as a list of used literature.

The introduction reflects the relevance of the study, the nature of the problems posed in the dissertation work, the purpose and objectives of the study, its main provisions, the scientific foundations of the research results obtained, and their practical importance.

In the first chapter «Scientific and theoretical views on the formation of the labor market and the regulation of employment», scientific and theoretical views on the formation and regulation of employment were investigated. In this chapter, based on the study of equilibrium models in the labor market and factors affecting the supply and demand of the labor force, the main trends, forms and methods of regulating employment were revealed.

In the second chapter «Changes in the labor market and employment in Azerbaijan for the years of independence», an analysis and assessment of the changes that occurred in the process of forming employment in Azerbaijan during the years of independence was carried out. Specific features of labor market formation and employment creation were investigated, analysis and assessment of the current state of employment and unemployment, labor movement and workplaces in Azerbaijan were carried out.

In the third chapter «Regulation of employment and the direction of social protection of the population», problems of state regulation of the labor market and issues of social protection of the population were investigated.

At the end of the thesis, the conclusions and proposals received as a result of the research were given, as well as a list of the literature used.

Format 60x84 $^{1}/_{16}$ .
AMEA-nın mətbəəsində çap olunub.
Sayı: 100 nüsxə.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**

**ИНСТИТУТ ЭКОНОМИ**

*На правах рукописи*

**АЛЛАХЪЯРОВ РАУФ МИРЗАГА ОГЛЫ**

# ПУТИ РЕГУЛИРОВАНИЯ ЗАНЯТОСТИ НАСЕЛЕНИЯ В УСЛОВИЯХ ФОРМИРОВАНИЯ РЫНКА ТРУДА

**Специальность: 53.08.01** - “Общая экономика”

**АВТОРЕФЕРАТ**

диссертации на соискание ученой степени
доктора философии по экономике

**Баку– 2018**